# Göy Qurşağı

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
№ 03 (79) / 2023



# Balaca ulduzlar

**Teymur Elçin**

Göydə yox, yerdədir
Bizim ulduzlar;
Balaca oğlanlar,
Balaca qızlar.
Günəşin dalınca
Gedirlər hər gün,
Dünyanı zülmətdən
Qurtarmaq üçün.
Göydə yox, yerdədir
Bizim ulduzlar
Balaca oğlanlar,
Balaca qızlar.

# Salam, əziz uşaqlar!



Yenidən görüşünüzdəyəm–İncəhörüm.

Heç bilirsiniz sizinlə görüşə necə tələsirdim? Sirli-sehrli nağılları, rəngarəng şəkilləri, maraqlı krossvordları, bilmədiyiniz neçə-neçə məlumatları vərəqlərə sığdırıb sizə sovqat gətirdim. Əyilib mənə nəsə pıçıldadığınızı hiss edirəm... Həəə, mən də sizləri sevirəm, hamınız üçün yamanca darıxmışdım.

Elə isə gəlin başlayaq! Heç bilirsinizmi, tarixdə 1 İyun hansı gündür? 1 İyun siz balaların ən gözəl, ən əziz bayramıdır. Bu gün Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür. Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da cox gözəl qeyd edilir. Biz bu əlamətdar günlə bağlı keçirilən hər bir şənlikdə sizlərlə idik. Belə yaddaqalan görüşlərdən biri də Heydər Əliyev Mərkəzinin parkında “Uşaq festivalı” idi.



Biz də bu festivalda iştirak etdik.

Sevimli dostlar, çoxunuzun orada olduğunu bilirik. Qoy, iştirak edə bilməyən dostlarımızı da bu sevindirici tədbirlə tanış edək.

Ulu öndər H.Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər çərçivəsində təşkil edilən festival zamanı Mərkəzin parkı uşaq şəhərciyini xatırladırdı. Park müxtəlif mövzu və əyləncə növləri üzrə zonalara bölünmüşdü. F.Köçərli adına Respublika Uşaq Kitabxanasına da ayrılan zonada böyük bir ağ çadır quraşdırılmışdı. Çadıra toplaşan uşaqlar özünü nağıllar dünyasında hiss edirdi. Onlar rəngli qələm, fırçalar, albom və s. ləvazimatlar qoyulan rəngarəng masalarda əyləşərək rəsmlər çəkdilər. Böyük həvəslə çəkilən rəsmlər olduqca maraqlı və sevindirici idi. Fırçasını fərqli mövzularda sınayan uşaqlar "Özün çək – özün rənglə" adlı müsabiqədə kitabxana tərəfindən də maraqlı hədiyyələrlə mükafatlandırıldı.

# Körpələri qoru, Tanrım

***Vaqif Məmmədov***

Hər biri bir zümrüd, inci,
Körpələri qoru, Tanrım.
Ata-ananın sevinci,
Körpələri qoru, Tanrım.

Qönçə olan, ləçək olan,
Təzə açan çiçək olan,
Bir-birindən göyçək olan,
Körpələri qoru, Tanrım.

İnsanlığın barı onlar,
Göz yaşıtək duru onlar,
Ömrümüzün nuru onlar,
Körpələri qoru, Tanrım.



***"Ruhunuzu sağaltmaq üçün uşaqlarla vaxt keçirin".***

***F. Dostoyevski***



*Əgər bizim uşaqlar əsl təhsil almaq istəyirlərsə, onlar mütaliə ilə təhsil almalıdırlar.*

*Nikolay Çernışevski*




*Yer üzündə uşaqlar var,*
*Rəngi qara, rəngi sarı.*
*Gəlin dostlar, salamlayaq*
*Bu gün bütün uşaqları.*

*Zeynal Cabbarzadə*





Əziz uşaqlar, dünya nağıl qəhrəmanları personajları da bu gözəl gündə uşaqları tək qoymayıb onların görüşünə gələrək birgə şəkil çəkdirib, onlarla səmərəli vaxt keçirdi.

Unutmadan onu da qeyd edək ki, bayramın sevimli qonaqlarından – Mehriban Nağıyeva, Gülzar İbrahimova, Zahirə Cabir və s. uşaqlara nağıl danışıb, maraqlı söhbətlər etdi. Festival çərçivəsində müxtəlif interaktiv oyunlar “Nağıl bilicisi” adlı müsabiqələrdə iştirak edən və qalib olan hər bir uşağa

***Əgər biz dünyada həqiqi sülhə nail olmaq istəyiriksə, o zaman uşaqlardan başlamaq lazımdır.***

***Mahatma Qandi***








***Uşaqlara gözəl dünya miras qoymaq yerinə dünyaya gözəl uşaqlar miras qoysaq, dünyanın bütün problemlərini həll etmiş olarıq.***

***Əziz Nesin***





“Göy Qurşağı” uşaq jurnalı, kitablar hədiyyə edildi. Həmçinin face-art üzrə rəssam müxtəlif nağıl qəhrəmanlarını uşaqların simasında çəkməklə onları sevindirdi. Gün ərzində uşaqlar parkda unudulmaz anlar yaşadı.

Əziz uşaqlar, əgər bayramda iştirak etmiş dostlarınızın qazandığı kitabları siz də oxumaq istəyirsinizsə, kitabxanamıza abunə olub, sevimli oxucumuza çevrilin. Axı qaranlıqdan işığa gedən yol kitabdan keçir.

Biri var idi, biri yox idi. Aysu adında gözəl bir qız var idi. Aysu nağılları çox sevirdi. Babası ona hər gün nağıl danışardı. Aysu nağıl eşitməmiş yuxuya getməzdi. Babası ona o qədər çox nağıl danışmışdı ki, artıq onun üçün hansı nağılı danışacağını bilmirdi. Bunu görən Aysu babasına dedi:

– Babacan, bəlkə, bu gün mən sənə nağıl danışım?

Babası çox sevindi:

– Olar, mənim balaca nəvəm. Bəs sənin nağılının adı nədir?

Aysu cavab verdi:

– Rəngarəng Günəş.

Beləcə, Aysu danışmağa başladı. Biri var idi, biri yox idi. Masmavi səmalı bir dünya var idi. Hər tərəfdə yaşıllıq göz oxşayırdı.Quşlar cəh-cəh vururdu. Ağaclar çiçəklənmişdi. Çiçəklərin ətri aləmi bürümüşdü. Amma səmadakı Günəş heç də sevinmirdi. Bir gün buludlardan biri soruşdu:

– Günəş, nə olub sənə? Niyə belə bikef dayanmısan?

Günəş cavab verdi:

– Mən rəngarəng olmaq istəyirəm.

Bulud gülməyə başladı. Necə yəni rəngarəng? Axı sən sarı rəngdə yaranmısan. Sarı da çox gözəl rəngdir. İşığın, istiliyin rəngidir. Bu rəng sənə çox yaraşır.

– Yox, istəmirəm, mən rəngarəng olmaq istəyirəm, – Günəş israr etdi.

Bulud narahat oldu. Axı Günəş xoşbəxt olmasa, kainat necə xoşbəxt ola bilərdi?

“Yaxşısı budur, mən Günəşə kömək edim, ancaq necə?” deyə bulud səma-



Mən də nağıl danışım

# Rəngarəng Günəş



da gəzişməyə başladı. Birdən gözü aşağıdakı rəngarəng çiçəklərə sataşdı.

– Heeey, çiçəklər, məni eşidirsiniz? – onları səslədi.

Rəngbərəng çiçəklər yuxarı baxıb gülümsədilər:

– Əlbəttə, Bulud, səni eşidirik.

– Sizdən bir xahişim olacaq. Bilirsiniz, Günəş çox narahatdır. O öz rəngindən məmnun deyil.

Sizin kimi rəngarəng olmaq istəyir. Siz birgünlüyünə öz rənginizi ona verə bilərsiniz?

Çiçəklər güldülər:

– Əlbəttə, verərik, Bulud. Axı Günəş olmasa, biz də olmarıq. Sular buxarlanmaz, yağış yağmaz, bütün kainat susuz qalar. Heç sən də olmazsan. Ona görə də Günəşi çağır. Biz öz rənglərimizi ona verməyə hazırıq.

Bulud Günəşi səsləyib ona dedi ki, daha kədərlənməsin. Çünki artıq o da rəngarəng ola bilərdi.

Beləcə, Qızılgül qırmızı rəngini, Xoruzgülü mavi rəngini, Çobanyastığı ağ rəngini, Ulduzçiçəyi çəhrayı rəngini, Əflatunçiçəyi isə narıncı rəngini Günəşə verdi.

Günəş rəngarəng olduğu üçün çox sevindi.Yenə hər tərəf işım-işım işıldayır, quşlar oxuyur, buludlar gəzişir, çiçəklər də dostlarına kömək etdiyi üçün sevincdən gülümsəyirdilər.

– Baba, nağılım necə idi, bəyəndin? – Aysu babasından soruşdu. Ancaq babası cavab vermədi, çünki o, yuxuya getmişdi. Aysu da gülümsəyib bir azdan yuxuya getdi.

Hər şeylə maraqlananlar üçün



# Uşaq mətbuatının ilk qaranquşu
# Dəbistan

***Sevimli dostlar, bu gün sevə-sevə yolunu gözlədiyiniz, maraqla rəngarəng səhifələrini vərəqlədiyiniz müasir dizaynla işlənib sizin qarşınıza gətirilən "Göy Qurşağı" və digər adda uşaq jurnallarından illər öncə ilk dəfə hansı uşaq jurnalının yarandığını bilirsinizmi?***

O, dünyaya necə göz açıb? Hansı şəraitdə, hansı üslubda və hansı mövzularla nəşr olunaraq, yoğrula-yoğrula formalaşaraq bu gün sizin qarşınıza necə gəlib çıxıb, bu sizə də maraqlı gəlirmi?

Heç bilisinizmi, o jurnalların eynilə sizin kimi yolunu gözləyən nə qədər uşaq vardı? Görəsən, hansı kağız formasında idi o jurnallar?..

Kim bilir, hansı çətinliklərlə üzləşərək sizin kimi neçə-neçə Azərbaycan övladının sevincinə və sevimli məşğuliyyətinə səbəb olub o jurnallar. Görəsən, hansı adlarda, neçə səhifə olaraq fəaliyyət göstərib?..

Deyəsən, elə sizi də yamanca maraq bürüdü. Elə isə gəlin uzaq keçmişdə – "Dəbistan" başlığı altında, iki həftədən bir nəşr olunan, millətin tərəqqisinə xidmət edən jurnalı tanıyaq. Bəli, Azərbaycanda nəşr olunan ilk uşaq jurnalının adı "Dəbistan" idi. Ona da aydınlıq gətirək ki, "Dəbistan" fars sözüdür və "ibtidai məktəb, mədrəsə" deməkdir.

Azərbaycan uşaq ədəbiyyatının tarixi lap qədimlərə gedib çıxsa da, onun tarixi 1906-cı il aprel ayının 16-dan başlayır. Həmin gün Bakıda "Dəbistan" adlı uşaq dərgisinin ilk nömrəsi çap edilərək oxuculara ünvanlanmışdı.

Əziz balalar, ən önəmli məqamlardan biri də o idi ki, "Dəbistan" Azərbaycan dilində nəşrə başladı. Jurnal Əli İsgəndər Cəfərzadə ilə Məhəmmədhəsən bəy tərəfindən nəşr edildi. Jurnalın 1906-cı ildə 18 nömrəsi, 1907-ci ildə 7 nömrəsi, 1908-ci ildə isə 2 nömrəsi çıxmışdır.

"Dəbistan"da Azərbaycan şair-yazıçılarının əsərləri ilə yanaşı, əcnəbi dillərdən (əsasən rus dilindən) tərcümə olunmuş nağıl və hekayələr, tarix və təbiətə, coğrafiya və səyahətə dair yazılar, pedaqoji, ədəbi hekayələr, məqalələr çap olunurdu.

Əziz balalar, onu da bilməlisiniz ki, jurnalın mətbəəsi Hacı Zeynalabdin Tağıyevin Bakıda Nikolayev küçəsindəki binasında yerləşirdi. Jurnalın oxuculara ünvanlanan, ön söz sayıla bilən sütununda "göndərilən yazıların sadə türkcə olmaları əsas şərt hesab olunurdu". Bu xahiş və göstərişə "Dəbistan" ın, demək olar ki, bütün yazarları əməl etmişdilər.

Ə.İ.Cəfərzadə böyük satirik şair Sabirlə görüşlərin birində ona müraciət edir ki, "Dəbistan"a töhfə kimi məktəbə dair bir şeir yazsın. Sabir dərhal stolun üstündən kağızlardan birini götürüb, cibindən karandaşını çıxarır. Əlüstü "Məktəb şərqisi" şeirini yazır və bu şeir "Dəbistan"ın növbəti nömrəsində dərc olunur.

"Dəbistan"ın "Valideynə məxsus vərəqə"si də olmuşdur. Jurnalın əməkdaşları elə bu gün də siz uşaqların sevimli ədibləridir. Siz hələ də onların əsərlərini dönə-dönə oxumaqdan yorulmursunuz.



# Damda yaşayan Karlson



***Dünya uşaq ədəbiyyatının ən sevilən və bənzərsiz obrazlarından biri də damda yaşayan Karlsondur. Obrazın yaradıcısı Astrid Lindqrendir. Onun haqqında jurnalımızın bundan əvvəlki sayında bəhs etmişik. Odur ki, birbaşa qəhrəmanımız haqqında danışacağıq. Söhbət damda yaşayan Karlsondan gedir.***

## Damda yaşayan Karlson obrazı necə yaranıb?

Bəli, indi sizə haqqında geniş bəhs edəcəyimiz uşaqların bu sevimli nağıl qəhrəmanı Astrid Lindqrenin "Balaca və damda yaşayan Karlson" əsərinin iki əsas qəhrəmanından biridir. Əsərdə təsvir olunan hadisələr 1950-ci illərdə İsveçin paytaxtı Stokholmun mərkəzi rayonlarının birində – Vazastanda bir evdə baş verir. Hadisələr damda yaşayan Karlson və əsərdə Balaca adlandırılan uşaq ətrafında cərəyan edir.



## Karlson kimdir?



Karlson balaca, kök və özündənrazıdır. O, həm qarınqulu, həm lovğadır. Tərif eşitməyi sevir. Həmişə şəndir. Fantaziyaları isə bitib-tükənmək bilmir. Karlson Astrid Lindqrenin vaxtilə özünün yaşadığı çoxmənzilli evin damındakı kiçik evcikdə yaşayır. Onun ən yaxşı dostu isə Svantessonlar ailəsinin kiçik övladı olan 7 yaşlı və "Balaca" ləqəbli Svante idi. Karlson uçmağı bacarır, belə ki, qarnındakı düyməni basdıqda belindəki mühərrik işə düşür. Pərlər tam fırlanana qədər Karlson hərəkətsiz dayanır, lakin artıq işə düşdüyünü bilən kimi Karlson yuxarı qalxaraq uçmağa başlayır. Uçuşu idarə etmək üçün hər hansı bir vasitə olmasına baxmayaraq, Karlson havada rahat şəkildə istiqamətini və yerini dəyişə bilir.









Karlson damda tüstü bacasının arxasında yerləşən balaca evcikdə yaşayır. O, səs salmamaq üçün öz motorunda olan səsboğucunu işə salır. İkinci kitabda bildirilir ki, Karlsonun motorunun adi vaxtlarda olan səsi helikopter-vertolyot səsini xatırladır.




## Balaca və Karlson tanış olduqdan sonra bir-birlərini necə tapırdılar?

Çox sadə: onlar siqnallar sistemi düşünüb tapmışdılar. Bir siqnal "təcili uç gəl", iki siqnal "nəbadə gəlmə" demək idi. Üç zəng isə "Dünyada Karlson kimi gözəl, ağıllı, həddi-büluğa çatmış və cəsur insanın olması necə böyük xoşbəxtlikdir!" demək idi. Karlson nəsə sındırdığı və ya hansısa başqa bir dəcəllik etdiyi zaman ən çox "Sakitlik, ancaq sakitlik" və "Boş şeydir, adi həyat hadisəsidir" deyimlərindən istifadə etməyi sevir.




Azərbaycanda da məşhur olan və çox sevilən "Balaca və Karlson" cizgi filmini tanınmış multiplikator Yuri Aleksandroviç Butırin çəkmişdi.

Astrid Lindqren oxucularından orta hesabla həftədə 150 məktub alırmış və onların əksəriyyətini şəxsən özü cavablandırırmış. Həmin məktubların bir çoxunda isə əlbəttə, Balaca və damda yaşayan Karlsonun əhvalatından da yazırdılar!



# CUPPULU NİLS KARLSON

ASTRİD LİNDQREN

( İ X T İ S A R L A )

Sevimli yazarlarımız

ƏZİZ DOSTLAR!

Bildiyiniz kimi, mən oxumağı çox sevirəm. Çox vaxt kitabxananın kitab rəflərində maraqlı kitablar axtarıram. Baxın, görün nə tapmışam. Necə maraqlı və rəngarəng kitabdır!

Bertil pəncərədən baxırdı. Hava soyuq və qaranlıq idi. O, ata-anasını gözləyirdi. Onlar hər gün fabrikə işləməyə gedirdilər. Altıyaşlı Bertil hələ oxumağı bacarmadığından evdə olan bütün kitabların şəkillərinə baxmışdı.

Otaq soyuq idi. Səhər valideynləri işə getməmiş sobanı yandırıb, evi bir az qızdırır, amma nahara qədər bütün istilik çəkilib gedirdi. Bertil də bu soyuq otaqda tək oturub darıxırdı. Əvvəllər bacısı Merta vardı. Bir dəfə Merta xəstələndi və sağalmadı. İndi bacısı yoxdu... Bertil bunları xatırladı və yanağından iki damcı yaş süzüldü. Elə bu vaxt çarpayının altından addım səsləri eşidildi. "Bəlkə, damdabacadır?!"

– Çarpayının altında balaca, düşündüyümüzdən də çox balaca, çeçələ barmaq boyda bir oğlan dayanmışdı.

– Salam! – oğlan dedi.

– Salam! Kimsən, çarpayımın altında nə işin var?

– Mən Cuppulu Nils Karlsonam.  Burada yaşayıram. O, küncdə yerləşən siçan deşiyini göstərdi.

– Sən çoxdan burada yaşayırsan? – Bertil soruşdu.

– Yox, cəmi bir neçə gündür. – Bundan əvvəl evim Lilyanskugen meşəsində ağac köklərinin altında idi. Amma payız gələndə darıxdım. Şəhərə köçmək istədim. Yaxşı ki siçana rast gəldim. Onun mənzilini kirayələdim. Düzdür, otağımda bir dənə də olsa, mebel yoxdur.

Bertil soruşdu:

– Heç divan, kreslo, çarpayı da yoxdur?

– İş burasındadır ki, yoxdur, Cuppulu kədərləndi.

– Mənim mənzilim də çox soyuqdur. Amma sənin mənzilin də heç mənimkindən geri qalmır.

– Mənim otağımda soba var, amma içinə qoymağa odun yoxdur. İndi odun elə bahadır ki! Ala bilmirəm. Bəs sən bütün günü nə ilə məşğul olursan?

– Heç nə ilə! – Bertil cavab verdi.

– Mən də, – Cuppulu dedi. – İstəyirsən, gedək bizə.

Bertil güldü:

– Mən bu siçan deşiyindən keçmərəm axı.

– Keçərsən, bu çox asandır. – Cuppulu izah etməyə başladı. – Yuvanın yanındakı mismara basıb deyirsən:

"Eylə mənu cuppulu, snuppe, snuppe, snuppe, slu".

Bir göz qırpımında siçan yuvasının ağzında Cuppulu kimi balaca bir məxluq peyda oldu.

– Getdik.

Onlar balaca daş pilləkənlə aşağı endilər.  Bertil otağı nəzərdən keçirdi:

– Bəs sən harada  yatırsan?

–  Döşəmənin üstündə.

– Oy-y-y... – Bertil əsdi. – Soyuq olmur?

– Olur. Özü də möhkəm olur. Donmamaq üçün tez-tez qalxıb otağın içində qaçıram. Bertilin ona yazığı gəldi:

– Ay səni.  Ağlıma yaxşı fikir gəlib. Mən sənə odun gətirəcəyəm. Sobanı qalayarsan. Heyif ki, məni kibrit yandırmağa qoymurlar.

– Sən odun tap. Yandırmaq mənim işimdir.

***Hekayənin ardını kitabxanamızda oxuya bilərsiniz!***



Şebnem Güler Karacan

# YATAĞAN KOALA VƏ EVKALİPT AĞACI

***Evkalipt ağacında yatır,***
***Yuxusu gözlərindən axır.***
***Koalalar çox tənbəl olur.***
***Ay Yatağan Koala,***
***Sən nə yaman şirinsən?!***

Bir varmış, bir yoxmuş. İki varmış, amma üç yoxmuş. Dörd yola çıxmış, beş qaçmış, bu hekayə çox xoş başlamış. Divlər evkalipt yarpaqları yeyirlərmi? Ağacda gəzirlərmi? Heç Koala divlərə "Gəl oynayaq", – deyərmi? Koalalar və hörümçəklər ac olanda nə yeyəcəklər?

Bizim Yatağan Koala Evkalipt ağacında bir o yana, bir bu yana çevrilərək elə hey yatırmış. Gülərək öz-özünə: "Koala olmaq, çox yatmaq nə gözəldir!"– deyirmiş.

**Onun qəhqəhələrini eşidən Evkalipt ağacı:**

– *Ey Yatağan Koala, nəyə gülürsən?*

– *Heç, çox gülməlidir.*

– *Gülməli olan şey nədir? Deyə bilərsənmi, mən də gülüm...*

**Yatağan Koala əsnəməyə başladı:**

– Aaaaaa! Çox istərdim izah edim, amma o qədər yuxum gəlir ki, həvəsim yoxdur. Aaa...

– Ey, bir dəqiqə dayan! Yatma, dur!

Evkalipt ağacı sözünü tamamlamamış Yatağan Koala yenidən yuxuya gedib xoruldamağa başladı: "Xooorrrr, xor- xor - xor, xorrrrrrr".

Bunu görən Evkalipt ağacı öz-özünə danışmağa başladı:

– Başa düşmədiyim bir şey var, həqiqətən, bunu heç anlaya bilmirəm. O, günün 24 saatından 17 saatını yataraq keçirir.

Quş Evkalipt ağacının budağına qondu. Onlar Yatağan Koala haqqında bir az söhbət etdilər. Evkaliptin dediyinə görə, koalaların yedikləri yarpaqlar əslində zəhərlidir. Sən demə, bu yarpaqları yalnız koalalar yeyəndə zəhərlənmirlər.

Onlar bütün günü ağacın budaqlarında mürgüləyirlər. Koalaların bədən quruluşu elə yaradılmışdır ki, zəhərli Evkalipt yarpaqları onlar üçün daha faydalıdır. Koalalar əlləri və ayaqları sayəsində saatlarla ağacda qala bilirlər.

**Quş dedi:**

– Bəs onlar su içmirlər? Yəni koalalar susuz yaşayırlar?

**Evkalipt ağacı gülməyə başladı:**

– O qədər tənbəldirlər ki, ağacdan enmirlər və mənim yarpaqlarımdakı su ilə keçinirlər.

**Bu anda Yatağan Koalanın səsi eşidildi:**

– Düşündüyünüz qədər də deyil, əzizlərim, hərdənbir hərəkət də edirik. Ağacın bir budağından digərinə elə tullanıram ki, sürətimə heç kim çata bilməz.

**Quş qanadlarını çırpıb dedi:**

– Bir dəfə tullana bilərsənmi? Bax elə indi! Mənim üçün çox maraqlıdır.

Koala tullanmaq üçün geriyə doğru bir addım atdı. Quş heyrətlə ona baxırdı. Koala tullanaraq digər budağa keçdi. Evkalipt gülüb dedi:

– Aradabir belə tullanır.

Koala hoppandığı budaqdan onlara əl yellədi. Quş da uçub o budağa qondu.

– Ay səni..! Çox gözəl hoppandın. Bəs niyə sənin yatağan və tənbəl olduğunu söyləyirlər?

– Bəli, yatağanam. Mən bunun əksini söyləmirəm ki... Mən də belə yaradılmışam. Bu həyatdakı yeganə dərdim Evkalipt ağaclarının başlarının küləkli olmasıdır. Bəzən şiddətli külək əsir, elə çox soyuq olur ki, az qalır küləyin təsirindən yerə yıxılım.

**Evkalipt gülərək:**

– Mən də səni budaqlarımla qoruyuram. Mənim də vəzifəm mürgüləyən koalaları qorumaqdır. Onsuz da mənim zəhərli yarpaqlarımı, ancaq koalalar yeyə bilir.

**Birdən möhkəm külək əsdi. "Vuuuuuuu" səsini eşidən Quş qonduğu budaqda bir az üşüdü və:**

– Bura çox soyuqdur, sən üşümürsənmi? – deyə soruşdu. Koala:

– Biz heç vaxt üşümürük. Çünki soyuqdan qorunmaq üçün qalın bir xəz ilə yaradılmışıq.

"Koalalar yatağan olasalar belə, yaxşı kirayəçidirlər. Heç olmasa, ətrafdakıları narahat etmirlər",– deyə Evkalipt öz-özünə danışmağa başladı. Günəş batmaq üzrə idi, yatmaq vaxtı gəlmişdi. O, ağır-ağır gözlərini yumdu. Daha böyük bir ağac olmaq üçün onun da yuxuya ehtiyacı var idi.

Как интересно!

# ЛИС В БИБЛИОТЕКЕ

**Лоренц Паули / Катрин Шерер**

Однажды мышь наслаждалась тихим и спокойным вечером, но вдруг почуяла запах и услышала подозрительный шум. Это был Лис.

– Вот я тебя и поймал! – обрадовался Лис.

Мышь торопливо нырнула в подвал.

– А ну-ка, стой! – прорычал Лис, прыгая за ней.

Лис уже в подвале! Скачет с коробки на коробку... со шкафа на шкаф... ловит Мышь по углам... ныряет в узкий проход и... оказывается посреди большой светлой комнаты.

– А где же Мышь? – растерянно пробормотал он и стал принюхиваться.

Но Мышью даже и не пахло. Только людьми... и бумагой.

Неожиданно Мышь появилась на одном из шкафов, и Лис тут же бросился за ней.





Мышь строго погрозила ему лапой.

– Тссс! Здесь нельзя шуметь. И никого тревожить тоже нельзя. А от тебя столько шума и беспорядка... Безобразие!

– Сейчас я тебя поймаю! – радовался Лис. – Теперь ты моя добыча!



– Ничего твоего тут нет! – засмеялась в ответ нахальная Мышь. – Здесь можно все брать только на время. И я уж точно не твоя, а охотиться тут нельзя.

Это БИБЛИОТЕКА!

– Билбикате...что?

– БИБЛИОТЕКА! – важно повторила Мышь.

– А что это такое?

– Здесь читают книги – или берут их на время, чтобы прочитать дома. Из книг можно узнать всё на свете и стать очень умным!

Мышь принесла Лису книжку с картинками.

– Вот, это тебе. Возможно, у тебя появятся какие-то новые идеи и желания.

На первой картинке были изображены старик и кошка. Они кормили цыплят. На следующей картинке к цыплятам подкрадывалась лима!

А в библиотеке стало очень тихо. Лис зачарованно смотрел на картинку и шептал:

– Цыплятааа... Действительно, отличная идея!

Мышь с облегчением кивнула – но Лис уже направлялся к выходу.

– Эй! – завопила вслед ему Мышь. – Ты должен вернуть книгу на место!

Но его уже и след простыл.

На следующую ночь Лис вернулся в библиотеку и с важным видом сообщил:

– Я хочу взять вчерашнюю книгу домой! И тебя, Мышь, тоже. Ты будешь читать мне вслух, потому что... потому что я не умею читать!



***Продолжение следует***



# Ayı daşı

**ŞƏLALƏ ƏMRAHOVA**
***F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşı***

*Əvvəli ötən sayımızda*

*Həmin günün axşamı çoban Murad bizə gəldi. Mənə bu gün gördüyümüz erməni maşını barədə suallar verdi. Sonra üzünü atama tutub: "O yaylaqda ayı yuvası var. Son günlərdə iki qoyunumu aparıb. Yəqin balaları var. Əgər bu ermənilər onları aparsalar, bizi çətin vəziyyətə salacaqlar. Ana ayı intiqamını bizdən alacaq" dedi. Sübh tezdən kişilər ehtiyat üçün balta ilə silahlanıb dünən bizim təhlükəsiz bildiyimiz, qorxusuz-ürküsüz gəzdiyimiz kimsəsiz yaylağa qalxdılar. Günortadan ötmüş qayıtdılar. Murad əmi yanılmamışdı. Ermənilər iki yerdə tələ qurublarmış. Tələlər ləğv edilmişdi. İndi biz həm ayı balalarını, həm də özümüzü təhlükədən xilas etmişdik. O gündən etibarən bizə yaylaqdan uzaqlaşmağa icazə verilmədi. Səhəri gün ermənilərin arzuolunmaz "fəaliyyəti" barədə məlumat vermək üçün Kəlbəcər rayon mərkəzinə bir atlı göndərildi.*

*Bu hadisədən bir neçə gün keçmişdi. Axşam idi. Hava qaralmağa başlamışdı. Yavaş-yavaş yaylaq əhli hərə öz çadırına yığışır, çıraqlarını yandırır, süfrələrini hazırlayırdılar. Qəfildən eşidilən qışqırıq səsinə hamı özünü çölə atdı. Qonşu qız Xatirə inandırmağa çalışırdı ki, təpəylə bizim çadırlara tərəf qalxan iri bir ayı görüb. Bir andaca hamı təlaşa düşdü. Kişilər balta, dəhrə, əllərinə keçən nə vardısa, götürüb ətrafa yayıldılar. Qadınlar məşəl yandırıb çadırların yanına qoydular. Biz isə yaylağın yeganə "Zaporojıe" maşınından heyvanı qorxutmaq üçün aramsız siqnallar verdik. Böyüklü-kiçikli qışqırıb çayın o biri tərəfindəki obalara da hay saldıq: "Ayı gəlib! Ayı gəlib!" İnsanların hay-küyünə çobanların köpəkləri də qoşulub dayanmadan hürürdülər. Lakin çox keçmədi ki, bu narahatlıq büsbütün yox olub getdi. Xatirənin "ayı gördüm" deməsi bizləri nə qədər qorxutmuşdusa, sonradan "əlində iri bir daş da vardı" deməsi bu xəbərə olan inamımızı yox elədi. Necə yəni əlində daş vardı? Ayı daşı neynirdi ki? Hamı qızı inandırırdı ki, o ayı zad görməyib. Ola bilsin ki, qaranlıqda gözünə nəsə görünüb. Düşdüyümüz bu vəziyyətə xeyli danışıb güldükdən sonra hər ailə öz çadırına yığışdı. Gecə çadırırımızın kilimdən ibarət olan qapısını içəri salıb üzərinə də iki ağır daş qoyduq. Hamı öz "qalasında" arxayın yatdı. Səhər açıldı. Həmişə olduğu kimi*

biz əlimizdə diş fırçası, çiynimizdə dəsmal çaya endik. Buz kimi çay suyunda əl-üzümüzü yuyub səhər yeməyinə tələsirdik. Birdən öndə gedən dostumuz Şahin dayandı. O, iri bir daşı bizə göstərib "Bu daş burda yox idi. Dəqiq bilirəm. Belə çıxır ki, Xatirə düz deyirmiş. Axşam bura ayı gəlibmiş. Amma ayının daşla nə işi?" deyə o bizim üzümüzə baxdı. Biz uşaqlar çox vaxt adlarımızı dəmir parçasıyla daşların üzərində cızardıq. Ona görə yaylaqda olan bütün iri daşlarla tanış idik. Bu daşın burada yeni peyda olduğuna biz də əmin idik. Amma həyəcandan heç nə deyə bilmirdik. Həmin gün çayın yuyub hamarladığı iri, qəhvəyi bu daş bütün yaylaq əhlinin söhbət mövzusu oldu. Hamı gəlib daşa baxır, toxunur, cavabı tapılmayan sualı bir-birinə verməkdən yorulmurdular: "Ayı çay daşını bura, təpəyə niyə gətirib?" Biz uşaqlar çox fəxr edirdik ki, ayı daşı məhz bizim təpəyə, bizim çadırların yaxınlığına qoyub. Elə həmin gün daşın üzərinə "Ayı daşı" sözünü həkk elədik. Hətta ayının gücü ilə öz gücümüzü müqayisə də etmək istədik. Amma heç birimiz daşı yerindən tərpədə bilmədik.





İşğal xatirələri silə bilmədi. Gözəl Kəlbəcərədə babamdan xatirə



Həmin hadisədən bir neçə gün keçmişdi. Yaylaq həyatımız öz axarı ilə davam edirdi. Bir gün çadırımızın qarşısında palaz sərdik. Samovar qaynadıb kəkotulu çay dəmlədik. Deyə-gülə süfrə başına yığışdıq. Qonşu çadırın yanında isə Mələk xala sac asıb, yuxa bişirirdi. Yaxınlığına qoyduğu beşikdən körpə qığıltısı eşidilirdi. Bir xeyli aralıda, çadırların arxasında balacalar futbol oynayırdılar. Qəfildən atılan top beşiyi hərəkətə gətirdi. O sürətlə yanımızdan ötüb üzüaşağı, çaya doğru şütüdü. Hamımız beşiyin dalınca var gücümüzlə qaçırdıq. Amma heç birimiz yetişib onu tuta bilmirdik. Uzaqdakı obalardan bu mənzərəni görənlər naəlac əllərini dizlərinə çırpır, körpənin xilasının mümkünsüzlüyünə heyifsilənirdilər. Qəfildən beşik əyilib dayandı. Sanki gözəgörünməz bir varlıq qollarını açıb onu saxladı. Biz təngnəfəs özümüzü yetirib uşağı götürdük. Elçin salamat idi. Başının altındakı yastıq sürüşüb onu əzilməkdən qorumuşdu. Beşiyi isə həmin daş saxlamışdı. Ana ayının qoyduğu həmin o sirli daş!"

Səhər açılanda kəşfiyyatçılar artıq geri dönürdülər. Tapşırıq uğurla yerinə yetirilmiş, lazımi koordinatlar əldə edilmişdi. Dəstə dağın yamacı ilə üzüaşağı enirdi. Birdən Adil uzaqdan, lap uzaqdan öz adını eşitdi. Çevrilib kimsəsiz dağlara baxdı. Bəli, o idi... Həmin o oğlan! Qaragözlü, qıvrımsaçlı.. Gülümsəyirdi. Uzaq keçmişdən ona əl eləyirdi. Adil dayandı. Fəxrlə əlini qaldırıb əsgər salamı verdi.

Dünya uşaq ədəbiy-
yatından seçmələr




# The Little Lie

## Writen by Jade Maitre

***Beginning in our previous issue***

Lily liked looking at Luca' s four books, but she did not show Luca her own book, which she kept tightly pressed beneath her arm.

Luca wanted to ask her to look at it, but he did not know how to ask.

At that moment, a huge commotion appeared on the horizon. It was a storm!

Lily went very pale as she ran to the window. As she stood against it looking out, she was so worried that the book slipped from under her arm and fell upon the cushions on the floor. But Lily didn't notice.

"I have to go!" she cried. "Mama and Papa are in the submarine!"

She ran down the stairs all the way to the bottom, and then sprinted across the lawn.

Luca watched her little red shoes flying behind her as the storm came in.

But although the storm was wild outside his window, Luca felt something very calm and quiet inside. Because Luca had seen when Lily dropped the book.

But for some reason, Luca hadn't told her, although he could have. He just though, it wouldn't be so bad if he could borrow the book for a while.

The storm had passed. The sea was bleached and lank, as though tired.

Night fell early, and Luca did not tell his parents about the book.

"What did you do up there in your bedroom?'' they asked.

We looked at the lamp, "he said. Luca said a little lie.

He just didn't want his parents to know that he had read books with Lily because they might ask about her book. "Shall we read one of your books tonight, before you go to bed?" asked his parents.

"No," said Luca.  I'm feeling tired." But Luca wasn't feeling tired. That was another little lie.

He wanted to read the book. He went back to his bedroom and read one word every time the lamp flashed past.

By midnight he was very tired, and had only read one third of the book.

As he turned each page, Luca realised that he never wanted to give the book back. He could see why Lily loved it.

The next night Luca intended to do the same thing as the first night. He snuck into his bedroom and read Lily's book. The words were as wonderful as ever.

But this time, something felt a little different in Luca, too. He felt strange when he turned each page.

He kept imagining Lily in her submarine, floating in the water, gazing at the black roof with no words on it. How lonely she must fell without her special book. And now Luca had five.

The following morning the felling inside him had grown, and it felt like a big hard lump in his belly. As big and hard as the beautiful book he had stolen.

And that heavy feeling felt bad, and he couldn't shake it off.

As the passed, Luca slowly knew what he had to do.

He felt very sorry that he had not told anyone that he had the book.

He picked the book up, walked all the way to the submarine, and asked if could speak to her.  "I had it all along,'' he said. "I wanted to read it. But I didn't tell the truth when you asked if I had it."

He worried that Lily would think he was unkind.

But instead Lily's face beamed as she embraced her book once more.

"What a lovely thing to tell the truth, she said. " That must have been very hard for you. Thank you, Luca."

"Shall we read the book together?" Lily asked.

And Luca and Lily became, from that day forwards, the very best of friends.

Gəlin birgə oxuyaq

# Yeni kitablar bizim rəfimizdə






Etiraf edim ki, ən yaxın dostum Damla ilə birgə heyvanları qoruma dərnəyinə seçilmədiyim üçün əvvəlcə çox kədərləndim. Sonra kitabxanaçılıq dərnəyində mənə daha çox ehtiyac olduğunu anladım.




Bu kitabı oxuyarkən fərqli hisslər keçirəcəksən. Güləcək, təəccüblənəcək, bəzən də kədərlənəcəksən. Nağılların sonunda verilmiş testləri həll etmək, nağıl ağacındakı sualları cavablandırmaq sənin sevimli məşğuliyyətinə çevriləcək.




Робби Мак-Леод – сирота. Его жизнь проходит на фоне сложных исторических событий, и только дружба с волком помогает ему пережить все испытания и найти своё место в мире.




Посредством своих творений писательница пытается приобщить детей к историческому и культурному наследию Азербайджана и зарубежных стран.




Nağılda gözəl bir şahzadənin qoca pəri tərəfindən ona bəddua olunaraq yüz il yuxuya getməklə hökm edilməsindən danışılır. Bəs birəsrlik yuxudan onu kimin oyatdığını bilirsinizmi? Siz bu əsəri oxumaqla xilasedici qəhrəmanı tanıyacaq və nağılda baş verən hadisələri yaxından izləyəcəksiniz.

“Qürbətdə bitməyən çiçək” hekayəsi şairə Ağabəyim ağanın dillərdə dastan olan Şuşa sevgisinə həsr edilib.













Gümüş göl Timsah Temsi, Fısfıs İlan, Telli Kopter, Xınalı Xərçəng, Müdrik Tısbağa və bir çox sakinin xoşbəxt yaşadığı bir məhəllədir. Onlar tez-tez fərqli hadisələrlə sənin qarşına çıxacaqlar. Məsələn: Timsah Temsinin dişi çox ağrıyır. Göl sakinləri ona müxtəlif məsləhətlər verirlər. Hamısını sınasa da, ağrısı keçmir. Görəsən, Temsinin dişinə nə olmuşdu?




В сборник вошли самые известные произведения сказочника с чудесными иллюстрациями – отличный подарок для любителей сказок.

Gələcəyin ensiklopediyası seriyası yeni texnologiyalar sahəsində erkən təhsilə dəstək vermək üçün düşünülüb.



# LEGO-nun tarixi




***LEGO markası dünyanın ən məşhur oyuncaq markasıdır. Ancaq az adam bilir ki, Danimarka şirkəti öz tarixini adi taxta məhsulları istehsalçısı kimi başlayıb. Və ilk LEGO oyuncaqları tamamilə ağacdan hazırlanmışdı.***



LEGO-nun tarixi 1932-ci ilə, Ole Kirk Kristiansenin Danimarkada gündəlik məmulatların istehsalı üçün şirkət qurduğu vaxta gedib çıxır. Bir gün Ole Kristiansen 12 yaşlı oğlunun ağac qırıntıları toplayaraq rənglədiyini və dostları ilə oynadığını gördü. Beləliklə, o, oyuncaq istehsalında özünü sınamağı qərara aldı. Hər şey taxta ördəklə başladı. Oyuncaqların sayı tədricən artdı. Oyuncaqlar istehsal etməyə başlayan Kristiansen öz şirkəti üçün ad axtarmağa başladı. O, iki sözdən yaranan LEGO sözünə qərar verdi – Leg və Godt, Danimarka dilindən tərcümədə "yaxşı oynamaq" deməkdir. 1947-ci ildə şirkətin tarixini əbədi dəyişdirən əlamətdar bir hadisə baş verir. LEGO tədricən taxtadan plastik variantına çevrilməyə başladı. İlk LEGO kərpicləri belə yarandı.



Leqo konstruktorlar hissə sayları və çətinlik səviyyələri baxımından müxtəlif yaş qruplarına ayrılır. Hər bir seriyanın fərqli adı vardır. Hər bir leqo konstruktorunun fərdi model kodu var. Leqolar məhz model kodları ilə seçilir. Qutunun üzərində leqonun yaş həddi, model kodu və içindəki hissə sayı qeyd olunur. Şirkətin çeşidi genişlənir, hər mövsüm uşaqları və dizaynerin böyük pərəstişkarlarını sevindirməyə davam edən yeni seriyalar buraxılır.

***Dünyanın ən böyük Leqolandın harada yerləşdiyini bilirsinizmi?*** 46 milyon miniatür kubdan yığılmış sehrli ölkə məşhur Leqo ixtiraçısının doğulduğu Danimarkanın Billund şəhərində yerləşir.





## Dünyamızın oyuncaq surəti

LEGO parkı 8 zonaya bölünüb, hər birinin öz mövzusu var və müəyyən yaş üçün nəzərdə tutulub. Əsas girişin solunda LEGO-lar tikən uşaqlara abidə, parkın simvolu isə skamyada yatan rəngarəng köynəkli əmidir. Növbəti skamyada böyük danimarkalı hekayəçi Hans Kristian Andersen oturur.

## Miniland

Parkın əsas zonası və ürəyi Minilanddır. Leqolandın tikintisi buradan başladı. Burda hər kəs özünü fərqli bir dünyada hiss edir. Bu dünya inanılmaz dərəcədə gözəl və realdır: gəmilər su səthi ilə süzür, yoldan keçən qatarların təkərləri relsləri döyür və yerlərdə Leqo adamlar rəqs edir. Plastik tikililərin nağıl diyarında əsl miniatür şam və qaraçaqlar bitir, gül yataqları, fənərlər var. Parkın adi sakinlərinin evlərinin yanında Danimarka kral ailəsinin iqamətgahının miniatür surəti var.





## Pirat torpaq

Mərkəzin sağına baxsanız, nəhəng bir kəllə görəcəksiniz. Oradan Pirat ölkəsinə səyahət çoxlu sayda attraksionla başlayır. Ziyarətçilər xüsusilə pirat döyüşlərini sevirlər. Gəmidə üzmək və göyərtədə quraşdırılmış toplardan düşmənə su atmaq çox gözəldir!

Biz artıq dünyanın ən böyük Leqolandının harada yerləşdiyini bilirik, onu da qeyd edək ki, Praqada dünyanın ən böyük LEGO muzeyi açılıb. Muzeyi yaratmaq üçün bir milyondan çox plastik kərpic götürülmüş 20 tematik ekran var.

Ailə krossvordu

# KROSSVORD



## SOLDAN SAĞA

1. Norveçdə şəlalə
4. Yunanların mifik qəhrəmanı
5. Böyük qoşun birləşmələrinin başçısı
7. İOS sistemli telefonlar üçün naviqasiya
9. Dalamazkimilər fəsiləsinə aid bitki cinsi
10. Seçilmiş, fərqlənən, mükəmməl
13. Təbii vasitələrlə əldə edilən qoxu və dad
15. Merkuridən sonra ən kiçik planet
16. Ən üstün qiymətləndirmə
18. İnfeksion xəstəlik

## YUXARIDAN AŞAĞI

1. Təyyarədə sərnişinlərə xidmət edən xanım
2. Elmi baxışlar sistemi
3. 652-ci ildə süquta uğrayan imperiya
6. Dülgər aləti
8. Təəccüblü, heyran (qəribə, heyrətamiz)
11. Düz xətt üzrə yayılaraq sədd yaradan dalğa
12. Estoniyanın paytaxtı – Tallində mikrorayon
14. Avropada ada-dövlət
17. Bir çox dinlərdə yaradıcı varlıq



## SOLDAN SAĞA

1. Azərbaycan ədəbiyyatında şeir forması
2. Şəki rayonunda kənd
3. Qiymətli daş
4. Qafiyəsi və rədifi olan bədii əsər
5. Bir sortu meşə gözəli adlanan meyvə
5. Antalya vilayətində rayon
6. Məsafəni müəyyən edən qurğu (cihaz)
7. Səyahətçi
8. Yaponiyada şəhər
9. Braziliyada stadion
10. Avtomobil markası
11. Həyat
12. Dəvəkimilər fəsiləsinə aid heyvan növü

## YUXARIDAN AŞAĞI

1. Türkiyə futbol klubu (1967-ci il)
2. Əhali artımını öyrənən elm
3. Kömək, yardım
4. Vücud ( bədən)  quruluşu
5. Fransız dilinin daxil olduğu dil qrupu
6. Azərbaycanda qaz-kondensat yatağı
7. Ləqəb
8. Simli musiqi aləti
9. Yük daşıma vasitəsi
10. Arzusuna çatmamış

***Kitabın müəllifi tərəfindən yazılmış əlyazma mətni, eləcə də müəllifin əlyazma imzası necə adlanır?***

A. Avtoqraf B. Faks C. Avtonim

***Müxtəlif ədəbi müəlliflərin seçilmiş əsərləri toplusu necə adlanır?***

A. Almanax B. Nəzm C. Antologiya

***Reproduksiyaları olan kitabın adı necədir?***

A. Kitabça B. Albom C. Broşür

***XX əsrdə hansı yeni kitab meydana çıxdı?***

A. Elektron B. Atom C. Plazma

***Kitab adamı kimə deyilir?***

A. Kitabxanaçı B. Oxumağı sevən C. Kitab satıcısı

***"Kitabxana" sözü ilk dəfə hansı ölkədə yaranıb?***

A. Yunanıstan B. Misir C. Qədim Rusiya

***Kitabxana kitabının hansı səhifəsinə ştamp vurulur?***

A. 3, 15 B. 1, 17 C. 2, 17

***İstifadədə olan və yenidən satışda olan kitabın adı nədir?***

A. İkinci əl B. Bukolik C. Antikvar



# Biliyinlə qazan



# Art Studio AR

## RƏSM STUDİYASI

*Tuk-tuk... Mənəm, İncəhörüm. Sizə bu səhifədə də rəngarəng xəbərlər verəcəm. ART STUDİO AR rəsm studiyasının rəhbəri Rübabə Şahmalıyeva və şagirdləri məni studiyaya dəvət etdi. Dostlar, dəvət məni çox sevindirdi. İstedadlı uşaqların fırçasından süzülən qeyri-adi rəsmləri toplayıb sizə də gətirdim. Buyurun, baxaq!*



Abdullayeva Nərmin, 16 yaş
Qayalar



Baranova Mariya, 13 yaş
Tovuzquşu

Quliyeva Zəhra, 16 yaş
İstirahət



Hüseynzadə Zeynəb, 17 yaş
Nübar





Mirzəyeva Zəhra, 13 yaş
Nar ağacı

# Balaca rəssam

Türkay şəkillər çəkir,
Rəngdən alır ilhamın.
Qələmi əldən düşmür,
İkiyaşlı rəssamın.
Bir iş var ki, biləsiz,
Rəsmi çəkir divarda.
Nənəsi gülüb deyir,
Usta lazım ağarda.
Atasıyla bağçaya,
Getdi balaca rəssam.
Daha şəkli vərəqdə,
Çəkdi asanca rəssam.

***Əyyub Məmmədov***



Şirəliyeva Sədaqət, 15 yaş
London yağışı



Salmanova Aytən, 15 yaş
Narlar



Xudaverdiyeva Sonaxanım,
17 yaş, Çimərlik



Quliyeva Xatirə,
16 yaş, Tülpan

# Pasta Çiçəkləri Sənəti

**Bu makaron çiçəkləri sənətkarlığı çox əyləncəli və yaradıcıdır! Hazırlanması çox asan olan bu gözəl makaron çiçəklərini yaratmaq üçün qurudulmuş makaron əriştələrini yapışdırın və rəngləyin! Bahar və yay çiçəklərinin gözəlliyini qeyd etmək çox əyləncəli bir sənətkarlıqdır.**

İncəhörümün emalatxanası



**MAKARON ÇİÇƏKLƏRİNİ NECƏ ETMƏK OLAR**

***Materiallar:***

- Bişməmiş makaron
- Taxta şiş
- Akril boya

***Avadanlıq:***

- Perqament kağızı
- Yapışqan tapançası
- Boya fırçası

**TƏLİMATLAR:**

Müxtəlif makaron çiçəkləri hazırlamaq üçün ən azı 3 və ya 4 növ makaron lazımdır. Biz makaron çiçək sənətimizi hazırlamaq üçün 6 növ qurudulmuş əriştə istifadə etdik: rotelle (vaqon çarxı), makaron, penne, pennette, fusilli və qabıqlar.

İş səthinə perqament və ya mum kağızı qoyun. Bu, işiniz bitdikdən sonra yapışdırılmış çiçəyi asanlıqla soymağa imkan verəcəkdir.

Çiçək şəklini almaq üçün pastanı perqament kağızı üzərinə düzün. Bu mərkəz üçün bir parça qabıqlı makaron istifadə etdik, ləçəklər kimi səkkiz ədəd fusilli makaron çiçək dizaynınızdan razı qaldıqdan sonra fusilli parçalarından birini götürün və yapışqan əlavə edin.

Bütün makaron parçalarını və fusilli mərkəzi qabığa yapışdırın.

Sapı və yarpaqları yapışdırın.

Çiçəyinizin orta arxasına isti yapışqan əlavə edin. İsti yapışqanın içinə taxta bir şiş sıxın və bərkidin. Bu, çiçəyinizin köküdür.

Pennet parçasının ucuna yapışqan əlavə edin.

Penneti taxta şişin yan tərəfinə yapışdırın. Əks istiqamətə işarə edən ikinci bir parça (yarpaqlar) əlavə edin.

Çiçək ləçəklərinin ön hissəsini örtmək üçün qırmızı akril boya istifadə edin, mərkəzi qabığı rəngsiz buraxın və yalnız arxa tərəfi rəngləyin.

Çiçəyi çevirin və mərkəzi qabığa sarı və yarpaqları yaşıl boya ilə rəngləyin.






**Baş redaktor: Şəhla Qəmbərova**
**Redaktor: Aynur Turan**
**Korrektor: İlahə Quliyeva**
**Bədii tərtibat: Aqil Tağıyev**

**Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.**

**Jurnalın üz qabığındakı foto:**
**Yassin Avvad**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022, S.Vurğun küçəsi, 88
Tel: (+99412) 5970879,
Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.

Qeydiyyat nömrəsi:
№ 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.

Təşkilati dəstək:
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

**web:** www.clb.az
**facebook:** fb.com/childlibazerbaijan
**twitter.com/**childlibaze
**instagram:** childlibazerbaijan
**youtube:** childlibazerbaijan